# Mahir Mehdinin şeirləri

# "Qurtarıb, bu gün vitrində yoxdu dünənki məndən..."



... Yeni su əlifbasında
qədim
balıq dilini...
Gələndə,
əliboş gəlmə,
götür, gəl sahilini.

Damcıla
su saatında,
çevir vaxtın çəmini.
Evimizin yanındakı
gecəyə sür
gəmini.

Öz dərində
tapılmasan,
matros formasında gəl.
Özündən qabaq çıx suya,
gəl,
gəlişindən əvvəl.

Duzlu suyunu sıxaraq
dənizi at çiyninə.
Qarışdır,
yosun rəngiylə
şəklini çək əyninə.

Burda
sayın hesabı yox,
çıxmır içindən batan.
Qurunu üzürük, bizə
dəniz gətir,
kapitan....

## Sən...

Azadlığımın sən halı
qandallarsız əsarət.
Hamı
sənin təkrarının
çoxluğundan ibarət.

Keçə - keçə
hər pərdəmdən
öz ritminin enində,
bəstələnirsən
sözümə
bir kişi bədənində.

Bu izdivac birgəlik yox,
ayrılığın nikahı...
Asılıb
çöl tərəfindən
iç üzünün izahı.

Olanlarım
düşünülmüş,
təkcə sən bədahətən.
Üç qadından
ikisinin
dəyişməz tərkibi sən.

Sənə çəkilirəm hələ
rejissoruz filmdə.
Geyib
biçmişəm bir dəfə -
sən ölçülü ölüm də.

... İmzalayıram adımı
su dilində
bətninə...
Bir qırmızıyla
sonradan
düzəlişsən mətnimə.

***

... Atılır
hündürlüyündən
çoxmərtəbəli bina...
Əl ağacımla
rəqs edir
təkqıçlı balerina.

Təkrardı
hər bir mizanı,
oynanıbmış bu dram...
Tərgitmişəm
yaşamağı,
indi sadəcə varam.

Gödəlirəm
yaş artdıqca,
3 günə enir həftən...
Darlığını
geyinirəm
həmişə gen tərəfdən.

Xırda - xırda
basdırıram
özümü hər öləndə...
Qurtarıb,
bu gün vitrində
yoxdu dünənki məndən.

Gerçək deyil heç kəs, hamı
gerçəyinin oxşarı...
Yerə vurub
kürəyimi,
yıxılıram yuxarı.

***

... Danışığım pantomimdi,
susmağım poeziya.
Gerçəyin
açarlığından
göründüm illüziya.

Şeirlər masturbasiya,
bicmiş ilham pərisi.
Açılıb,
gördü içimi,
gözlərimin gerisi.

Fikirlər silsiləsinin
şəkli xaosda biçi.
Nə öncə gəldim,
nə sonra...
doğuldum miladiçi.

Dırmaşdığım
bu təkcəlik
İkiliyə BİR giriş.
Yumruq gizlədi
ovcumu,
ayağa durdu yeriş.

Meracım
Yerə qayıtmış
bir epleptik yuxusu.
Yandım,
basdı dörd aləmi
ərinmiş söz qoxusu.

Bütün yönlər mənə sarı,
Ünvan:
Doğuda Batı...
Verilmiş bu qısa vaxtı
öldüm uzun-uzadı...

***

... Geri dönə bilmir
yarım addımı,
içə qayıdır
çölündən gedən.
Tək adama
çoxuymuş
ikiqollu bir bədən.

Qadını
sevdiyi kişi
öldürür,
ən çox
əzizlədiyi
və qoruduğu
yerdən.
Sevdiyi qadın gətirir
dünyaya kişini
ikinci dəfə,
doğub - eləmədən.

## Tirdə ölüm məşqi

... Hər işi
tutdu gizlicə -
əllərin mason əlcəyi...
Özünə dartılan tətik
keçmişlədi
gələcəyi.

Bütün sözləri güllələ,
sağ buraxma
birini də...
At, yıxılsın
hündüründən
ən sevdiyin yerimi də.

Atsan elə at, bir güllə
beş yöndən
dəysin hədəfə...
Güllə - güllə
dirilt məni
təzə bir üzdə hər dəfə.

Olanı sevməyə
nə var,
olmadığım yerdən istə...
Gözünü qıy,
təkrar - təkrar
at, öldür məni
üst - üstə.

***

... Tullanaraq
məni atdın
özüncü mərtəbədən...
Ölümündən
qabaq çatıb
yerə,
çıxdın növbədən.

Damcıladın
öz başından
qırmızı düşüncədə.
Ölüm sənə
əl qaldırdı,
söyüb qoydu küncə də.

Üzünə çırpılıb məni
öldürdü
hər nöqtəndə.
İçib yekələ bilmədin,
bitdin mənə yetəndə.

Bir nəfərlə də uzatdın
məndə
ölü sayımı....
Çaparaq sağ ayağımın
geydim
ölüm tayını.

Tutduğum bütün nömrədə
özüm oldum hər otaq...
Dura bilmədim
üzünə,
sənsiz bitdi istintaq...

**Səhifəni hazırladı: Emil Rasimoğlu**